PROPHETIC NARRATIVES AND EXAMPLES OF PROPAGATION BY THE PROPHETS IN THE HOLY QURAN

Shargiya Salmanova[1]
Aladdin Malikov[2]

UDC: 297.; 297.18.; 297.122
LBC: 86.38; 86.38-21,02
HoS: 46
DOI: 10.33864/2790-0037.2025.v6.i1.42-50

Keywords:

Narration,
Halak,
Mohammed Abduh,
Prophet Noah,
Iram (Ubar)

ABSTRACT

The article emphasizes that the stories contained in the Holy Quran are grouped into two headings: the stories of The prophets and the stories of other communities, and Among them are 26 stories of the prophets. The article Provides examples of the preaching of monotheism among The stories of these prophets and a description of the Peoples who died because of disbelief in him. The article is organized into three main headings: the terminological Meaning of the concept of stories, the purpose of stories And examples of sermons of the prophets.

[1] Azerbaijan Institute of Theology, Master's student in History of Religion; Baku, Azerbaijan (corresponding author)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

To cite this article: Salmanova, Sh., & Malikov, A. [2025]. Prophetic Narratives and Examples of Propagation by the Prophets in the Holy Quran. *History of Science journal*, *6*(1), pp.42-50.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.42-50

Article history:
Received: 08.11.2024
Accepted: 09.12.2024

QURANİ KƏRİMDƏ PEYĞƏMBƏR QİSSƏLƏRİ VƏ PEYĞƏMBƏRLƏRİN TƏBLİĞAT ÖRNƏKLƏRİ

Şərqiyə Salmanova[1]
Ələddin Məlikov[2]

UOT: 297.; 297.18.; 297.122
KBT: 86.38; 86.38-21,02
HoS: 46
DOI: 10.33864/2790-0037.2025.v6.i1.42-50

Açar sözlər:

Qissə,
Həlak,
Muhammed Abduh,
Nuh Peyğəmbər,
İrəm (Ubar)

ANNOTASİYA

Məqalədə Qurani Kərimdə yer alan qissələrin peyğəmbər Qissələri və digər toplumların qissələri olaraq iki başlıqda yer alması və onlar arasında 26 peyğəmbər qissəsinin Olduğu vurğulanır. Bu peyğəmbər qissələri arasında olan Tövhid əqidəsinin təbliği örnəkləri və buna iman etməyərək Həlak olan qövmlərin təsviri məqalədə yer almışdır. Məqalə üç ana başlıqdan təşkil olunub: qissə anlayışının terminoloji Mənası, qissələrin məqsədi, peyğəmbərlərin təbliğat Örnəkləri.

[1] Azərbaycan İlahiyyat İnstitutunun "Dinlərin Tarixi" ixtisası üzrə magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı (ISNI: 000000051417505 2); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

Məqaləyə istinad: Salmanova, Ş., & Məlikov, Ə. [2025]. Qurani Kərimdə Peyğəmbər qissələri və Peyğəmbərlərin Təbliğat örnəkləri. *History of Science jurnalı*, *6*(1), səh.42-50.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.42-50

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 08.11.2024
Təkrar işlənməyə göndərilmişdir: 09.12.2024
Çapa qəbul edilmişdir: 28.02.2025

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

ПРОРОЧЕСКИЕ ПОВЕСТВОВАНИЯ И ПРИМЕРЫ ПРОПОВЕДИ ПРОРОКОВ В СВЯЩЕННОМ КОРАНЕ

Шаргия Салманова[1]
Аладдин Маликов[2]

УДК: 297.; 297.18.; 297.122
ББК: 86.38; 86.38-21,02
HoS: 46
DOI: 10.33864/2790-0037.2025.v6.i1.42-50

Ключевые слова:

Кисса,
Халак,
Мухаммед Абдух,
Пророк Ной,
Ирам (Убар)

АННОТАЦИЯ

В статье подчеркивается, что Истории, содержащиеся в Священном Коране, Объединены в две рубрики: истории пророков и Истории других общин, и среди них 26 историй пророков. В статье приведены примеры проповеди Единобожия среди рассказов этих пророков и Описание народов, погибших из-за неверия в него. Статья организована по трем основным рубрикам: Терминологическое значение понятия рассказов, цель Рассказов и примеры проповедей пророков.

[1] Азербайджанский Институт Теологии, Магистрант по специальности «История религии»; Баку, Азербайджан (ответственный автор)
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177
Цитировать статью: Салманова, Ш., & Маликов, А. [2025]. Пророческие повествования и примеры проповеди пророков в Священном Коране. *Журнал History of Science, 6*(1), с.42-50.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i1.42-50

История статьи:
Статья поступила в редакцию: 08.11.2024
Отправлена на доработку: 09.12.2024
Принята для печати: 28.02.2025

1.Giriş

Son vəhiy dini olan İslamın müqəddəs kitabı Qurani Kərim Hədəf baxımından insanlığı haqqa dəvət etmə, Tövhid əqidəsinə yönəltmə, yaradıcısına şükr etmə, oxunduğu gündəki topluma özlərindən öncəkilərin xəbərini verib, öz hallarını müqayisə etmə kimi, təfəkkürə söykənən ali məqsədləri özündə cəmləşdirir. Bu məqsədlə Quran müxtəlif ayələrdə düşünüb, ibrət almaları üçün keçmiş ümmətlərin başına gələn hadisələri, müsibətləri açıqlayaraq ağıl sahibləri üçün ibrətlər olduğunu bəndələrinə çatdırır:

لقد كان فِي قصصهم عبرة لأولِي الْأَلْبَابِ مَا كَانَ حَدِيثًا يفترى ولكن تصديق الَّذِي بين يديهِ وتفصيل كُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِقَوْمٍ يُؤْمِنُونَ

12. Yusif surəsi, 111-ci ayə

Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.

Təfəkkürü hədəfləyən Quran bu məqsədlə müxtəlif Ümmətlərin həyatlarını ibrət vasitəsi olaraq qissələr Şəklində nəql edir. Bu qissələr Quranın böyük bir qismini əhatə edir və qissələrlə hədəflənən məqsəd daha aydın və yadda qalan olur. Təlim təhsil zamanı bir mövzu haqqında təcrübə nümunələri olmadan, o mövzunun zehində canlandırılması çox da mümkün olmur. Bu səbəbdən günümüzdə bir elm sahəsində müəyyən bir fikir bildirilərkən onun daha gözəl izah edilməsi və yadda saxlanılması üçün müəyyən texnoloji yeniliklərdən faydalanılaraq, üç ölçülü modelləri təqdim olunaraq, hadisənin miqyasını canlandırmaq üçün təcrübə nümunələri verilərək hadisənin və məlumatın zehində proyeksiyalandırılması prosesi həyata keçirilir. Qissələr də hadisələrin yadda aydın qalması üçün təcrübi fakt və örnək vasitəsidir. Məqaləmizdə qissələr üç başlıqda təhlil olunaraq məlumat verilməyə çalışılacaqdır: birinci- qissə anlayışının Terminoloji mənası, ikinci- qissələrin məqsədi, üçüncü- Peyğəmbərlərin təbliğat örnəklərinin qissələrdə təsviri.

2.Qissə anlayışının terminoloji mənası

Ərəb dilində ق ص ص kökündən yaranıb, izah etmək, izini sürmək, təqib etmək, kəsmək kimi mənalara gələn qissə sözü keçmişdə yaşayan millətlərin həyat tərzlərini izləyib, təqib etmək və bu təcrübələrdən faydalanaraq gələcəyə yönəlmiş proqramlar həyata keçirmə mənası ifadə edir. [1] Qurani Kərimdə qissələr müxtəlif məqsədlər üçün oxucuya çatdırılır. İlk və ən əsas məqsəd xəbər verməkdir. Quranda Keçmişin xəbərlərini nəql etmək üçün sitat gətirilən hadisələrin məqsədi belə izah edilir:

كذلك نقص عليك من انباء ما قد سبق وقد اتيناك من لدنا ذكراً

(Ya Rəsulum!) Keçmişin xəbərlərinin (olub keçənlərin) bir qismini sənə belə nağıl edirik. Sənə Öz dərgahımızdan (insanların düşünüb daşınması, ibrət alması üçün) Quran da Vermişik! [Taha/99]

Burada qissənin xəbər vermə xüsusiyyətinin məqsədi olmuş və nəticələnmiş məlumatları bildirmək və ötürmək anlamı daşıyır. [2] İkinci bir məna isə ق ص ص kökündən yaranan felin bir şeyi açıqlamaq mənasında Quranda işlənməsidir. Bu anlamda olan feil Yusif surəsində oxucunun qarşısına çıxır və Yaqubun oğlu Yusifə gördüyü yuxunu qardaşlarına danışmamasını təmbeh etməsi zamanı istifadə olunur. Feil ayədə bu şəkildə yer alır:

قال يا بني لا تقصص رعيَاكَ عَلَى إِخْوَتِكَ فيكيدوا لَكَ كَيداً إِنَّ الشَّيْطَانَ لِلإِنْسَانِ عَدو مبين

(Atası Yaqub) dedi: "Can oğul! Yuxunu qardaşlarına Danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanın Açıq-aşkar düşmənidir. [Yusif/5]

Qissə sözünü əmələ gətirən ق ص ص feilinin bir digər mənası isə Quranda" izləmək, izinə düşüb getmək" şəklində diqqət Çəkir:

قَالَ ذَلِكَ مَا كُنَّا نَبْغِ فَارْتَدَّا عَلَى آثَارِهِمَا قَصَصًا

(Musa "Elə istədiyimiz də (axtardığımız da) budur!" – dedi Və onlar öz ləpirlərinin izinə düşüb gəldikləri yolla geri (iki dənizin qovuşduğu yerə) qayıtdılar. [Kəhf/64]

Qissə sözünün terminoloji mənası ilə yanaşı Quran ayələrindəki ehtiva etdiyi mənalara nəzər saldıqda belə bir nəticəyə gələ bilirik ki, qissə sözü sadəcə lüğəvi mənadaki iz sürmək, xəbər vermək deyil, yalan ehtimalı və xəyalın qarışması mümkün olmayacaq bir tərzdə tarixin dərinliklərində itmiş, unudulmuş və ya bəzi izləri insanlığın hafizələrində varlığını qoruya bilmiş hadisələrin, baş verənlərə yenidən canlılıq verərək Quranın hidayət rəhbəri olmasına uyğun bir şəkildə əslindən heç bir dəyişiklik edilmədən ilahi mesajın ecaz və ecazına paralel bir anlayışla tərəf müqabilinə nəql edilməsi, bəyanıdır. [3]

3.Qissələrin məqsədi

Qissələri anlamaq və izah etmək üçün ilk öncə qissələrin istifadə olunduğu mənbə və bu mənbənin hansı missiyanı daşımasını təyin etmək vacib bir addımdır. Çünki hədəflənən məqsədi müəyyənləşdirmədikdə mənbəyə yanaşma tərzləri də fərqli olacaqdır. Qurani Kərimdəki qissələr də nəzərdən keçirilərkən ilk öncə Quranın ali məqsədinin nə olduğunu anlayıb, sonra şərh etməyə, oradaki hadisələrə iki qat diqqətlə yanaşmağa çalışılmalıdır. Əks təqdirdə bəzi Qərb araşdırmaçılarının düşdüyü yalnışa düşüb, Quranın nəql etdiyi hadisələr arasında tarix baxımından heç bir xronoloji ardıcıllığın olmaması, qissələrdəki hadisələrin gerçəkliyinin sorğulanması fonunda, ümumilikdə İslam dinin özündə bir geriliyin olması, İslamın rasionalizm və elm adı altında dəyərləndirilə biləcək hər şeydən uzaq olduğu və bu səbəbdən də İslamın düşük bir dəyərə sahib olduğu iddia edilməsi [4] kimi hadisələrlə çox qarşılaşılacaqdır. Qissələrdəki zikr edilən hadisələrin həqiqətdə yaşanılıb, yaşanılmamasını, həqiqətliliyinin sorğulanması daima aktual bir mövzu olmuş və bu haqda müxtəlif fikir sahiblərinə rast gəlinmişdir. Misal üçün quran qissələrinin həqiqətliliyi mövzusunda araşdırmaları olan elm adamlarından Məhəmməd Abduh bu hadisələrin bütünlükdə doğru olması, yaşanmasının vacib olmadığını, bu hadisələrin misal verilərək Quranda öyüd və ibrətin hədəfləndiyini vurğulaması ayələrin təmsili olması qənaəti yaradır. Abduh kimi bir sıra müfəssirlər Quranın məqsədinin tarixi məlumatlar vermək olmayıb, ibrət məqsədli olması fikri üzərində həmfikirdirlər. Lakin Quranda bəhs edilən hadisələrin həqiqətdə olmaması və Quranın böyük bir qismini əhatə edən qissələrin tarixdə mövcud olmayan sadəcə insanları haqqa dəvət yolunda misal üçün nəql edilən bir nümunə olduğunu söyləmək, Quranın həqiqiliyini inkar etmək, bütünlükdə verilən tarixi hadisələrə şübhə ilə yanaşmağa səbəb olacaqdır. Bu da Qərb araşdırmaçılarının hədəflədiyi Quranın alilik dərəcəsini azaltmada hədəfə yaxınlaşdıran bir pillə olacaqdır.

Quranın əsas məqsədinin müttəqilər üçün yol göstərici Olması [Bəqərə 2] və bu hədəfdə yardımçı olaraq qissələrdən yararlanılması iman sahiblərinə həyatlarında örnək almaları üçün istinad mənbəyidir. Günümüzdə sosial elmlərin əsas araşdırma mövzuları arasında olan insanların dəyər anlayışının formalaşması mövzusuna diqqət yetirdikdə insanın dəyər anlayışını müxtəlif elm sahələrinin formalaşdırdığını görə bilirik. Dəyər bir şeyin önəmini, vacibliyini müəyyənləşdirməyə yarayan, birşeyin dəydiyi qarşılıq, qiymət, yüksək və yararlı keyfiyyətdir. [5] Dəyərlərin təlimi zamanı fərdin dünyaya gəldiyi gündən özü ilə gətirdiyi müsbət tərəfini ortaya çıxarıb, onu müsbətə doğru inkişaf elətdirmək əsas məqsəddir. [6] Bu Məqsədlə fərdlərin dəyərlər təlimi zamanı ən ideal vasitə Quran qissələri və onların verdiyi sosial mesajlardır. Az yaşlılardan başlayaraq hərkəsin ehtiyac duyduğu zehni, mənəvi, sosial, əxlaqi və dini inkişaflarını tamamlaya bilmələri üçün nəsihətlərdən daha çox, yaşadıqları həqiqi həyatın bir növ proyeksiyası olan hadisələrdən əmələ gələn model hadisələrə ehtiyac duyulur. [7] Bu məqsədlə Qissələrdəki hadisələrin oxuyucusunun həyatına müsbət mənada yeniliklər qatması və onlara təlim verərək sağlam əqidəli toplum və sosial çevrə inşası verməyi hədəfləyən Quran keçmişin xəbərlərindən ibrət alıb gələcəyi formalaşdırmağı bizlərə bizə öyrədir.

Qissələrin məqsədinə nəzər saldıqda Quran qissələrində yer alan və oxucuya nümunə olaraq təqdim edilən “gözəl örnəklər” ilə yanaşı tarixdə “mənfi örnəklər” olması şəxsiyyətin formalaşdırılmasında qissələrin öyrədici funkiyasında hər iki nümunənin paralelliyini təmin

edir. [3] Bu örnəklərlə oxuyucunun anlama, müşahidə etmə, müqayisə, analiz-sintez qabiliyyətindən istifadə edərək nümunələrdəki örnəkləri öz real həyatlarında olan hadisələrlə eyniləşdirib, həll yolunu tapmasında müsbət rol oynayır.

4.Peyğəmbərlərin təbliğat örnəklərinin qissələrdə təsviri.

Qurani Kərimdə yer alan qissələr yetişən nəsilin dəyərlərinin formalaşmasında əvəzsiz rola malikdir. Quranın əsas hədəfi olan hidayətlə Quran qissələri arasında olan əlaqə danılmazdır. Qissələrin bəzilərində ağıla xitab daha üstünlük təşkil etdiyi halda, digərində qəlb və duyğulara xitab daha üstündür. [8] Hidayətə çatdıran Quran qissələri nəzərdən keçirilərkən Quranda iki ana başlıqda qissələrin toplandığını görə bilərik. Birincisi- Peyğəmbərlərin qissələri, ikincisi- digər toplumların, qövmlərin həyatı və başlarına gələn hadisələrlə bağlı olan qissələr.

Qurani Kərimdə iyirmi altı peyğəmbər qissəsi mövcuddur ki, bu qissələrin yer aldığı ayələr də, Qurandaki ayələrin 32,53% ni təşkil edir. [2] Peyğəmbər qissələrinin əsas oxşar cəhətləri isə onların göndərildikləri qövmü tək olan Allaha iman etmə yolunda etdikləri xitablardır. Bu cəhdlərindən dolayı qövmlərinin çox az bir qismi hidayət carçısı Peyğəmbərlərə iman etmiş, onların haqqa dəvətinə sarı getmişlərdir. İnanmayan, asi, müşriq və üsyan əhli olan qövmlər isə Yaradan tərəfindən ilahi cəzaya məruz qalmış və tarixdə "Həlak olmuş qövm" anlayışı ilə zikr edilən bir topluluğa çevrilmişlərdir.

5.Nuh peyğəmbər və qövmü

Həlak edilən qövmlər haqqında olan qissələrdən ilki Nuh Peyğəmbər haqqında olan qissədir ki, Qurani Kərim iyirmi səkkiz surədə Hz. Nuh barəsində məlumat verməkdədir. Nuh peyğəmbərin adını daşıyan, Quranın 71-ci surəsi olan Nuh surəsi bütünlükdə peyğəmbərin tövhid təbliğinə həsr olunub. Digər səmavi dinlərin müqəddəs kitablarında da haqqında danışılan Nuh peyğəmbərin həyatı, nəsil şəcərəsinin təqdimatı cəhətdən Əhdi-Ətiqdə daha təfsilatlı təqdim olunsa da, təbliğat səbəbi, qövmü həlaka aparan hadisələr silsiləsi Qurani kərimdə daha izahedici biçimdə izah olunur. Qövmün bütlərə sitayiş etməsi, onların bütlərinin adları, ailəsinin üzvlərinin ona inanıb inanmaması (oğlu və xanımının onun haqqa dəvətinə biganə yanaşması), qövmü arasında yaşadığı il (950 il) [Ənkəbut 14] və nəticədə öncədən xəbər edilmiş bəlanın yetişməsi Quranda oxucuya müxtəlif surələrdə təkrarlar şəklində nəql edilməkdədir. Qövmünə bir olan Yaradana sitayiş etmələrini, ona (Allaha) şərik qoşmamalarını təbliğ edən peyğəmbərin sözünə qarşı qövmün irəligələnləri əhaliyə öz bütlərindən dönməmələrini təmbehləyirlər. [Nuh 23] Bunun Müqabilində əhalidən bir qisim istisna olmaqla böyük bir hissəsi Nuh peyğəmbəri dəli adlandırıb, ona inanmır. [Muminun 25]

Nuh peyğəmbər ona edilən rəftar qarşısında, ən əsası Allaha şərik qoşulmasının şahidi olduqdan sonra Tanrıya xitabən dua edib, qövmünə bəddua edir. [Şuəra 118-ci Ayə; Nuh 26-27 ci ayə] Bütün bu hadisələrin fonunda demək olar ki, təkcə dini mətnlərin deyil, müxtəlif xalqların ədəbi nümunələrində, dastanlarında da ibrətamiz hekayələr arasında yer alan məşhur Tufan hadisəsi gerçəkləşmiş olur. Peyğəmbərin təbliğinə uymayan, onun uzatdığı xilas əlini tutmayan qövm bu şəkildə tarixdə Peyğəbər tərəfindən bəddua edilib, ibrətamiz həlaka düçar olan qövm kimi qalır.

6.Hud Peyğəmbər və Ad qövmü

Digər bir peyğəmbər qövmü və təbliğat örnəyi isə Hud Peyğəmbərin nümunəsində qarşımıza çıxır. Hud Peyğəmbərin təbliğ üçün göndərildiyi qövm Ad qövmü olaraq tanınır. Quranda Allah bu qövmə sayısız nemətlər verdiyini, [Əhqaf 26] onları xilqətcə daha güclü yartdığını [Əraf 69] xəbərə verir. Fəqət bu qövmün üzvləri də bütlərə sitayiş edib, dünyada əbədi qalcaqlarmış kimi qəsrlər inşa edir, axirətə, hesab gününə inanmır. [Muminun 33-37] Peyğəmbəri yalanlayıb, onun da özləri kimi sadə biri olduğunu söyləyib, onu yalançı adlandıran qövmdən Rəbbinə sığınan Hud peyğəmbər Allahdan yardım istəyir. Təbliğatla

məşğul olan bütün peyğəmbərlərin rastlaşdığı bir səhnə olan "əgər doğru söyləyirsənsə rəbbinin vədi, cəzası bu anda gerçəkləşsin" meydan oxuması bu Qövmün də həyatında baş vermiş, [Əhqaf 22-23] qövm yeddi gün, səkkiz gecə davam edən ilahi cəza ilə [Əl-Haqqa 7] uğultulu, tükürpədici səsin müşaiyət etdiyi külək, soyuqla həlak olmuşdu. Onların halı su üzərində hərəkət edən saman Çöpü və xurma kütüklərinə bənzədilmiş [Muminun 41; Qamər 20] bu xalq əfsanəvi İrəm (Ubar xalqı) olaraq tarixdə haqqında müxtəlif kitablar yazılan qövmə çevrilmişdir.

7.Saleh peyğəmbər və Samud qövmü

Xalqını təbliğləri ilə Allaha qarşı gəlməkdən çəkindirmək İstəyən Saleh peyğəmbərin Hz. Nuhun soyundan gəldiyi və Quranda Samud qövmünə göndərildiyi xəbər edilir. Səmud sözünün mənasına diqqət yetirdikdə "az su" mənasını [9] verdiyini görürük. Və bu da həmən qövmün həlakına səbəb olacaq hadisəyə bir təsir göstərən su ilə imtahana işarədir. Belə ki, Səmud qövmünə Rəbb gözəl bacarıq vermiş, bunun nəticəsində onlar dağları oyaraq evlər tikir, mərmərdən istifadə edir, [Əraf 74] il ərzində yağan az miqdarda yağışı oyulan dağdaki çuxurlarda toplayıb, ondan qənaətlə il ərzində istifadə edirdilər. Lakin onlara verilən sayısız nemətlərə özlərindən əvvəlkilər kimi asi olub, şükr etməyən tayfa və onun başçısı həm Hz. Salehə, həm də ona iman gətirənlərə qarşı bir cəbhə alırlar. [Əraf 75; Hud 62] Onları bütə sitayişdən çəkindirmək istəyən Hz. Salehə inananların olduğunu gördükdə hətta onu öldürmək üçün namizədlər də təyin edən qövm nümayəndələri [Nəml 48-49] özlərindən əvvəlkilər kimi möcüzə görmək istəyir və Tanrı xilasedici göndərəcəkdisə onlardan birini yox mələk göndərərdi deyə hökm verirlər. [Fussilət 14] Bunun qarşılığında Saleh peyğəmbər qayadan çıxan bir dəvəni onlara möcüzə olaraq göstərir və su ehtiyatlarını həmən Dəvə ilə bölüşmələrini söyləyir. Fəqət dəyərləri olmayan bu tayfa onu kəsib əmanətə xəyanət edir. [Qamər 29] Təbliğə uymayıb, Allahın göndərdiyi əmanətə qəsd edən topluluğu 3 gün içində bəlaya düçar olacaqları ilə məlumatlandıran Hz. Saleh bəla gəldiyində yenə xalqına dönüb son dəfə onları haqqa dəvət edirsə də, [Əraf 79] qövm tükürpədici səslə, səhər çağı, quru ota dönəcək şəkildə həlak olur. "Səmudun (Samud qövmünün) başına gələnlərdə də (bir ibrət dərsi vardır)." [Zəriyət 43]

8.Lut Peyğəmbər qövmü

Qurani Kərimdə haqqında 16 surədə məlumat verilən Lut Peyğəmbərin, Hz. İbrahimin qardaşı Haranın oğlu olduğunu görürük. O bölgədəki insanların bütə sitayiş edən, indiyə qədər heçbir məxluqun etmədiyi əməlləri edən bir topluluq olduğunu görürük. [Ənkəbut 28] Lut peyğəmbərə inanalarla birgə Peyğəmbəri yaşadıqları yerdən çıxarmağa belə çəkinməyən qövm, Lutun evinə qonaq qismində gələn mələkləri belə öz çirkin əməllərinə qatmaq istəmiş fəqət Lut peyğəmbərin etirazı və onlara yenidən doğru yolu göstərmə cəhdi ilə qarşılaşmışlar. Allahın qəzəbinin gələcəyinə inanmayan xalq və Lutun xanımının həlak təsviri, kükürd və atəşlə yoğrulmuş yağış, qızmar daşdan, bişmiş gildən yağış kimi təsvir olunur.

9.Şueyb qövmü (Mədyən xalqı)

Mədyən və Əykə xalqına göndərilən peyğəmbər olan Hz. Şueyb Hz. İbrahimin nəvələrindən olan Mikailin oğludur. [10] Hz. Şueybin qövmünə göndərilməsi hadisəsi və Mədyən xalqına təbliğat prosesi Quranda ifadə olunarkən onların tərəzidə düzgünlüyə riayət etməyən, sosial nizama əks olan davranışlara cəhd edən, Allaha və onun buyruqlarını təbliğ edən peyğəmbərə iman edənləri qorxudub, yollarından döndərən qövm olduğu söylənilir. Digər bütün təbliğat aparan peyğəmbərlər kimi, etirazla qarşılaşan Şueyb Peyğəmbər etdiyi haqqa dəvət qarşılığında qövmündən heç bir mənfəət güdmədiyini, mükafatının Allah qatında olacağını bildirir qövmünə. [Şüəra 180] Allaha iman etmələrini, bütlərə sitayişi tərk etmələrini qövmünə söyləyən Şueyb peyğəmbərə qövmü isteza ilə "*Ey Şüeyb! Atalarımızın ibadət etdiklərindən, yaxud mallarımızı İstədiyimiz kimi xərcləməkdən imtina etməyimizi*

namazınmı Sənə əmr edir?" söyləyirlər. [Hud 87] Peyğəmbərə ovsunlanmış, yalançı deyən qövm [Şüəra 185-186] ona, ailəsinə və iman edənlərə hədə qorxu gələrək "ya dinimizə dönəcəksiniz, ya da sizi buradan qovacağıq" deyə şərt irəli sürürlər. [Əraf 88] Hər azğın qövm kimi onlar da ilahi təbliğə şübhə ilə yanaşıb, peyğəmbərdən doğru söyləyirsə möcüzə gətirməsini, göyün bir parçasını üzərlərinə endirməsini istəyirlər. [Şüəra 187] Onlara verilən cəzanın təsviri zamanı "qızmar günəşdən sonra peyda olan Qara buludun əzabı" ifadələrindən istifadə olunmuşdur. [Şüəra 189] Onların yaşadıqları bu ibrətamiz cəza **"Kölgə Gününün əzabı"** olaraq adlandırılır və qövmlərin həlakının nümunələrindən birini təmsil edən ifadəyə çevrilmişdir.

10.Nəticə

Qurani Kərimdə Tövhid əqidəsinə yiyələnsinlər deyə qövmlərinə göndərilən peyğəmbərlərin təbliğat müddətində yaşadıqları hadisələri, qövmlərinin inad və şirklə dolu etirazını və nəticəsində həlaklarının təsvirini qissələr vasitəsi ilə öyrənmə şansına nail oluruq. Bu qissələr müxtəlif surələrdə qarşımıza çıxaraq təkcə bir dəfə deyil, dəfələrlə oxucusuna xatırladılır. Bununla, Yaradan əvvəlki nasillərin başlarından keçən hadisələri hər yeni ayə nazil olduqda təkrar edərək ağıl sahiblərini ibrət almağa dəvət edir. Əvvəldə də qeyd etdiyimiz kimi digər səmavi dinlərin müqəddəs kitablarında olan peyğəmbər hekayələrində rastlaşdığımız xronoloji ardıcıllıq Qurani Kərimdə müşahidə olunmur. Çünki buradaki qissələrin xatırladılma məqsədi hadisələri təfərrüatı ilə təsvir etmək deyil, hadisələrdən örnək alıb, dərs çıxarmaqdır. Bu məqsədlə Yaradan tərəfindən ayələr nazil olarkən o zaman qarşisındaki qövmdə təmbehə, xatırlatmaya ehtiyacı olan bir hal gördüyündən öncəkilərin halını xatırladır və ibrət götürmədiklərini düşündükdə və ya unutmasınlar deyə eyni halları zamanın müxtəlif dilimlərində təkrarla diqqəti hadisəyə yönəldərək ifadə edir.. Günümüzdə şəxsi həyatlarımızla müqayisə etməli olsaq, yemək yeyərkən qidasini israf edən, yeməyəcəyi halda həddindən çox ətrafına qida yığan və yediyi neməti yerə tökərək hörmətsizlik edən, ehtiyacı olmadığı halda artıq su israf edən bir insanla rastlaşdıqda ona bu feillərinə diqqət etməsini, israfın, nemətə sayğısızlığın günah olmasını xatırladırıq. Bunu edərkən müəyyən örnəklərlə hadisənin necə nəticələnəcəyini də nümunə göstərib, fikrimizi möhürləyirik. Halbuki bütün bu qaydalara riayət edənə bu xatırlatmaları etməyə ehtiyac duymuruq. Buradan nəticə çıxara bilirik ki, Quranda eyni hadisələrin dəfələrlə təkrarlanması xəbərdarlıqlardan nəticə çıxarmayan insanların mövcudluğunun davam etdiyi üçün Tanrı tərəfindən yenidən dərs çıxarıb, ibrət almaları üçün istifadə olunan xəbərdarlıq metodudur.

Məqalədə də qeyd etdiyimiz kimi Quranda iki ana başlıq altında formalaşan qissələr nəql olunur. Biz burada qövmlərinə tövhid əqidəsini təbliğ edən, lakin qarşılığında müşriqlikdən dönməyib, həlak olan qövmlərin qissələrini və onları haqqa dəvət yolunda məlumatlandıran, təbliğat aparan peyğəmbərlərin təbliğat prosesinin əks olunduğu qissələrə nəzər saldıq. Günümüzdə sağlam bir toplum, sağlam düşüncəli, mənəviyyatı yüksək olan və ictimai əlaqələrdə İlahi təbliğlərdə yer alan nizama əks olmayan rəftarlar sərgiləyən fərdlər kimi yetişmək və qarşılığında təməli sağlam bir cəmiyyət qurmaq istəyiriksə Quran qissələrində yer alan dəyərlər təlimini örnək almalı və həm şəxsimizi həm də ətrafımızı bu tələblər ətrafında formalaşdırmalıyıq.

11.REFERENCES

1. Bayrakli, B. (n.d.). The concept of teaching and revelation in the Quran. *Diyanet Ilmi Dergi*, 27(4), 165. (In Turkish)
2. Kara, M. (2014). A subject- and scope-centered analysis in Quranic stories. *Islami Ilimler Dergisi*, 72. (In Turkish)
3. Shengul, I. (n.d.). *On Quranic stories*. 46. (In Turkish)
4. Renan, E. (1946). Islam and science. (Trans. Z. Isyan). *Speeches and Conferences.* Sakarya Publishing House, Ankara, 186. (In Turkish)

5. Dilmach, B., & Ulusoy, K. (2012). *Values education.* Pegem Academy, Ankara, 13. (In Turkish)
6. Gurler, A. (n.d.). *Values education in school*. 16-17. (In Turkish)
7. Yilmaz, M. (n.d.). *The use of Quranic stories as an effective material in values education*. 142. (In Turkish)
8. Shimshek, S. (1998). *Introduction to Quranic stories.* Yonelish Publications, Istanbul. (In Turkish)
9. Al-Isfahani, R. (n.d.). *Mufradat.* 107. (In Arabic)
10. Koksal, M. A. (1990). *History of the prophets*. Ankara, I, 327. (In Turkish)
11. *The Holy Quran.* (2020). Meaning-based translation of the Holy Quran into Azerbaijani. Baku, NPrint Studio. (In Azerbaijani)

ƏDƏBİYYAT

1. Bayraklı, B. (n.d.). Kur’an-ı Kerim'de öğretim kavramı ve vahiy. *Diyanet İlmi Dergi,* 27(4), 165.
2. Kara, M. (2014). Kur’an kıssalarında konu ve kapsam merkezli bir analiz. *İslami İlimler Dergisi,* 72.
3. Şengül, İ. (n.d.). Kur’an kıssaları üzerine, 46.
4. Renan, E. (1946). İslamlık ve bilim. (Z. İsyan, Çev.). *Nutuklar ve Konferanslar.* Sakarya Basımevi, Ankara, 186.
5. Dilmaç, B., & Ulusoy, K. (2012). *Değerler eğitimi.* Pegem Akademi, Ankara, 13.
6. Gürler, A. (n.d.). *Okulda değerler eğitimi*. 16-17.
7. Yılmaz, M. (n.d.). *Değerler eğitiminde etkin bir materyal olarak Kur’an kıssaları ve kullanılışı*. 142.
8. Şimşek, S. (1998). *Kur’an kıssalarına giriş.* Yöneliş Yayınları, İstanbul.
9. El-İsfahani, R. (n.d.). *Müfredat*. 107.
10. Köksal, M. A. (1990). *Peygamberler tarihi.* Ankara, I, 327.
11. *Qurani Kərim.* (2020). Qurani Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi. Bakı, NPrint Studiyası.